**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

16 may 2026-cı il №18 (9172) www.muallim.edu.az muallim@media.edu.az

**Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən Türk dünyası həftəsi keçiriləcək**

## Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü təşəbbüsü artıq ənənəyə çevrilir




Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edildikdən sonra qardaşlaşdığı ilk şəhər Türküstan şəhəri olmuşdur. Qədim şəhərlərimiz də xalqlarımız kimi qardaşdır.

Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının ilk dəfə 2024-cü ildə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü təşəbbüsü artıq ənənəyə çevrilir.

Yaxın günlərdə Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində Türk Dövlətləri Təşkilatının şəhərsalma üzrə yüksəksəviyyəli dialoqu təşkil ediləcək.

Türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən Türk dünyası həftəsi iyun ayında Bakıda keçiriləcək. Əminəm ki, bu tədbir xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcək.

Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi əsas vəzifələrimizdən biridir. Bu məqsədlə Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası yaradılmışdır.

Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstanın Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündəki çıxışından*

## Müasir təhsil ocaqlarının qurulması işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsidir



**Prezident İlham Əliyev Cəbrayıl rayonunun Şükürbəyli kəndində məktəb binasının açılışında iştirak edib**

İşğaldan azad edilmiş digər ərazilərimizdə istifadəyə verilən yeni məktəblərdə olduğu kimi, bu təhsil müəssisəsində də müəllim və şagirdlər üçün hərtərəfli şərait yaradılıb. Məktəbdə tədrisin yüksək səviyyədə aparılması üçün zəruri fənn kabinetləri, həmçinin fizika, kimya, biologiya laboratoriyaları, informatika, texnologiya, ibtidai hərbi hazırlıq sinifləri var. Bundan başqa, məktəbdə kitabxana, akt və idman zalları, yeməkxana müəllim və şagirdlərin ixtiyarına verilib. Ərazidə, eyni zamanda, futbol və basketbol meydançaları da yaradılıb.

Qeyd edək ki, müasir təhsil ocaqlarının qurulması işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsidir. Ən yüksək standartlara cavab verən təhsil müəssisələri yeni texnologiyalarla, zəruri maddi-texniki baza ilə təchiz olunur.

Bax səh.2

## Müasir infrastruktur, innovativ yanaşmalar



İqtisadiyyat naziri Mikayıl Cabbarov, elm və təhsil naziri Emin Əmrullayev və İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Əl-Casirin rəhbərlik etdiyi nümayəndə heyəti Qarabağa səfər edib. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qonaqlara aparılan bərpa-quruculuq işləri, eyni zamanda həyata keçirilən infrastruktur layihələri barədə məlumat verib.

Bax səh.2

## Türk xalqlarının mədəni-mənəvi irsinin qorunması və təbliğinə dövlət səviyyəsində dəstək göstərilir

Azərbaycan Dövlət Pedaqoji Universiteti, TÜRKSOY, Yunis Əmrə İnstitutu, Daşkənd Beynəlxalq Universiteti və ADPU-nun Filologiya fakültəsinin birgə təşkilatçılığı ilə 14-15 may tarixlərində əyani və onlayn formatda təşkil olunan beynəlxalq konfransda Azərbaycanla yanaşı Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Koreya, Rusiya, Ukrayna, Moldova, Estoniya, Əfqanıstan və digər ölkələrdən alim və tədqiqatçılar bir araya gəliblər.

Bax səh.4



**“Mənə göstərilən etimadı doğruldacağam”**
Bax səh.5

**“ABŞ-da Qarabağ Universitetinin adını eşidəndə...”**
Bax səh.6

**43-cü Balkan Riyaziyyat Olimpiadasından 3 medal**
Bax səh.8

**Peşə mərkəzinin tələbəsi Avropa Kubokunda medal qazanıb**
Bax səh.8

# Müasir təhsil ocaqlarının qurulması işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsidir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Cəbrayıl rayonunun Şükürbəyli kəndinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə kənddə inşa edilmiş 360 şagird yerlik məktəb binasının açılışını edib.**



## Prezident İlham Əliyev Cəbrayıl rayonunun Şükürbəyli kəndində məktəb binasının açılışında iştirak edib





Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Şükürbəyli kəndində görülmüş işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdilər.

Bildirildi ki, Şükürbəyli Cəbrayıl rayonunun eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 18 kilometr cənub-şərqdə, düzənlik ərazidə yerləşir.

Kənd 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. İşğaldan əvvəl kənddə məktəb, klub, kitabxana və xəstəxana fəaliyyət göstərib, əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıqla məşğul olub. Kənd 2020-ci ildə Vətən müharibəsi zamanı rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Prezident İlham Əliyev 2023-cü ildə kəndin təməlini qoyub.

Sonra elm və təhsil naziri Emin Əmrullayev məktəbdə yaradılmış şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Diqqətə çatdırıldı ki, işğaldan azad edilmiş digər ərazilərimizdə istifadəyə verilən yeni məktəblərdə olduğu kimi, bu təhsil müəssisəsində də müəllim və şagirdlər üçün hərtərəfli şərait yaradılıb. Məktəbdə tədrisin yüksək səviyyədə aparılması üçün zəruri fənn kabinetləri, həmçinin fizika, kimya, biologiya laboratoriyaları, informatika, texnologiya, ibtidai hərbi hazırlıq sinifləri var. Bundan başqa, məktəbdə kitabxana, akt və idman zalları, yeməkxana müəllim və şagirdlərin ixtiyarına verilib. Ərazidə, eyni zamanda, futbol və basketbol meydançaları da yaradılıb.

Qeyd edək ki, müasir təhsil ocaqlarının qurulması işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsidir. Ən yüksək standartlara cavab verən təhsil müəssisələri yeni texnologiyalarla, zəruri maddi-texniki baza ilə təchiz olunur.

# Müasir infrastruktur, innovativ yanaşmalar

**İqtisadiyyat naziri Mikayıl Cabbarov, elm və təhsil naziri Emin Əmrullayev və İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Əl-Casirin rəhbərlik etdiyi nümayəndə heyəti Qarabağa səfər edib. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qonaqlara aparılan bərpa-quruculuq işləri, eyni zamanda həyata keçirilən infrastruktur layihələri barədə məlumat verib.**





## İİB nümayəndələri azad edilmiş ərazilərdə təhsil sahəsində görülən işlərlə tanış olub

Səfər çərçivəsində nümayəndə heyəti Ağdam Sənaye Parkında olub. Sahibkarlarla görüşdə istehsal potensialının artırılması və ixracyönümlü inkişaf perspektivləri müzakirə edilib. Dayanıqlı iqtisadi inkişaf və özəl sektorun gücləndirilməsi istiqamətində İİB-lə əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində fəaliyyət göstərən və 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkının artıq 70%-dən çox hissəsi sahibkarların istifadəsinə verilib. Sənaye parkının rezidentləri qeydiyyat tarixindən 10 il müddətinə əmlak, torpaq və mənfəət vergilərindən azaddır, idxal olunan texnika və avadanlıqlara görə ƏDV və gömrük rüsumu ödənilmir. Həmçinin, sahibkar tərəfindən istehsal prosesində istifadə ediləcək bir sıra xammal və materialların idxalı 10 il müddətinə ƏDV-dən azad olunur.

Qonaqlar işğaldan azad edilmiş ərazilərdə təhsil və sosial infrastruktur sahəsində görülən işlərlə tanışlıq çərçivəsində Füzuli şəhərində Qazaxıstan tərəfindən inşa edilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, 1 saylı körpələr evi-uşaq bağçası, həmçinin özbək xalqı adından hədiyyə olaraq inşa edilən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə olublar. Təhsil və sosial müəssisələrdə yaradılmış müasir infrastruktur, tətbiq olunan innovativ yanaşmalar və uşaqların hərtərəfli inkişafı üçün formalaşdırılmış imkanlar diqqətə çatdırılıb.

Şuşa şəhərinə səfər zamanı qonaqlar şəhərin tarixi-mədəni abidələri ilə tanış olublar. Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov burada həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri ilə bağlı məlumat verib.

Nümayəndə heyəti Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində olub, burada yaradılmış müasir tədris infrastrukturu və akademik mühitlə tanış olub. Qeyd edilib ki, universitet regionun sosial-iqtisadi inkişafına töhfə verəcək yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm potensiala malikdir.

Səfər çərçivəsində işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, yaradılan müasir infrastruktur və formalaşdırılan əlverişli investisiya mühitinin regionun sosial-iqtisadi inkişafına mühüm töhfə verdiyi vurğulanıb. Eyni zamanda, İslam İnkişaf Bankı Qrupu ilə sənaye, təhsil, sosial infrastruktur və sahibkarlığın inkişafı istiqamətlərində əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib.

# Ali təhsil müəssisələrinin iqtisadiyyatın inkişafına və innovativ mühitin formalaşmasına daha böyük töhfə verməsi əsas hədəflərdəndir



## AZCON və AzTU-dan mühəndislik təhsilində yeni model: AZSET proqramına start verildi



**Mayın 14-də AZCON Holding və Azərbaycan Texniki Universitetinin (AzTU) əməkdaşlığı və "TUM International GmbH"nın akademik dəstəyi ilə təsis edilən "AZCON School of Engineering and Technology" — AZCON Mühəndislik və Texnologiya Məktəbinin (AZSET) təqdimat mərasimi keçirilib. Təqdimat mərasimində elm və təhsil naziri Emin Əmrullayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, "TUM International GmbH"nın (TUMint) icraçı direktoru Friederike Hettinger və AzTU-nun rektoru Vilayət Vəliyev çıxış ediblər.**




- **"Beynəlxalq təcrübə universitetlər, innovasiya sahəsində fəaliyyət göstərən şirkətlər və biznes qurumlarının əməkdaşlığının daha effektiv nəticələr verdiyini göstərir.**
- **Ali təhsil müəssisələrinin iqtisadiyyatın inkişafına və innovativ mühitin formalaşmasına daha böyük töhfə verməsi əsas hədəflərdəndir. Bu istiqamətdə uğurlu nəticələrin əldə olunması universitetlərin öz potensialını gücləndirməsi ilə mümkündür.**
- **Almaniya universitetləri və innovasiya sahəsində seçilən şirkətlərlə əməkdaşlıq Azərbaycan gənclərinin və tələbələrinin gələcəyinə töhfə verir. Əvvəlki dövrlərdə bu istiqamətdə fəaliyyətlər ayrı-ayrılıqda həyata keçirilsə də, hazırda əsas məqsəd onların vahid əməkdaşlıq platformasında birləşdirilməsidir".**

### AZSET proqramı haqqında məlumat:

Azərbaycan Texniki Universitetinin (AzTU) nəzdində təsis edilmiş AZCON Mühəndislik və Texnologiya Məktəbi Münhen Texniki Universitetinin (TUM) beynəlxalq akademik tərəfdaşlıq platforması olan "TUMint" təşkilatının dəstəyi əsasında fəaliyyət göstərəcək. Beləliklə, dünya səviyyəli akademik təcrübə AZSET proqramının tədris modelinə inteqrasiya olunacaq. "TUM" mütəxəssisləri həm Bakıda əyani formada, həm də onlayn qaydada tədris prosesində iştirak edəcəklər. Tədris prosesi "TUMint"in akademik yanaşması, kurikulumu, tədris metodologiyası və qiymətləndirmə standartları əsasında hazırlıq görmüş müəllimlər tərəfindən həyata keçiriləcək.

Beynəlxalq səviyyəli mütəxəssislərin hazırlanmasını hədəfləyən məktəbdə tədris tam şəkildə ingilis dilində aparılacaq. AZSET proqramı Azərbaycanın ali təhsil müəssisələrinin müvafiq təhsil, təbiət, texniki və texnoloji ixtisaslar üzrə birinci kursunu başa vurmuş tələbələr üçün nəzərdə tutulub. Proqrama müraciət etmək istəyən namizədlərin birinci kursun hər iki semestri üzrə ümumi orta müvəffəqiyyət göstəricisinin (ÜOMG) ən azı 81 və daha yüksək olması, eyni zamanda ingilis dili üzrə ən azı B2 və daha yuxarı səviyyəyə malik olmaları tələb edilir. Qəbul üçün daxili imtahana qeydiyyat cari ilin 15 iyun — 15 iyul tarixləri arasında aparılacaq. Uğur qazanan tələbələr təhsillərini ikinci kursdan bu proqramda davam etdirə biləcəklər.

Yüksək nəticə göstərən tələbələrin "TUM"un Münhen kampusuna tədris səfərləri nəzərdə tutulur. Proqramı uğurla başa vuran məzunlar AzTU-nun dövlət nümunəli bakalavr diplomu ilə yanaşı, "TUM International GmbH" sertifikatını əldə edəcəklər. Eyni zamanda yüksək akademik nəticə göstəriciləri ilə fərqlənən məzunlar üçün AZCON Holding ekosistemində fəaliyyət göstərən şirkətlərdə karyera imkanı yaradılacaq.

*AZSET proqramı haqqında ətraflı www.azsetedu.az*

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında bildirib ki, beynəlxalq təcrübə universitetlər, innovasiya sahəsində fəaliyyət göstərən şirkətlər və biznes qurumlarının əməkdaşlığının daha effektiv nəticələr verdiyini göstərir.

Nazir qeyd edib ki, ali təhsil müəssisələrinin iqtisadiyyatın inkişafına və innovativ mühitin formalaşmasına daha böyük töhfə verməsi əsas hədəflərdəndir. Onun sözlərinə görə, bu istiqamətdə uğurlu nəticələrin əldə olunması universitetlərin öz potensialını gücləndirməsi ilə mümkündür.

Emin Əmrullayev vurğulayıb ki, Almaniya universitetləri və innovasiya sahəsində seçilən şirkətlərlə əməkdaşlıq Azərbaycan gənclərinin və tələbələrinin gələcəyinə töhfə verir.

Nazir bildirib ki, əvvəlki dövrlərdə bu istiqamətdə fəaliyyətlər ayrı-ayrılıqda həyata keçirilsə də, hazırda əsas məqsəd onların vahid əməkdaşlıq platformasında birləşdirilməsidir.

Nazir həmçinin təşəbbüsün həyata keçirilməsində iştirak edən iş dünyası nümayəndələrinin və tərəfdaşların rolunun xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Çıxışının sonunda tərəfdaşlara təşəkkürünü bildirən Emin Əmrullayev formalaşan əməkdaşlıq modelinin güclü biznes, universitet və beynəlxalq tərəfdaşlıq platforması kimi Azərbaycanın inkişaf məqsədlərinə xidmət etdiyini vurğulayıb.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev çıxışında qeyd edib ki, yeni təsis edilmiş məktəb Azərbaycanda sənaye və ali təhsil arasında daha praktik, beynəlxalq akademik keyfiyyət standartlarına əsaslanan və gələcəyin texnoloji peşələrinə istiqamətlənmiş innovativ əməkdaşlıq modelini formalaşdırır. AZSET proqramı Azərbaycanın texnoloji insan kapitalının inkişafına yönəlmiş strateji investisiya kimi dəyərləndirilə bilər.

Rəşad Nəbiyev əlavə edib ki, tələbələr Azərbaycanı tərk etmədən Münhen Texniki Universitetinin keyfiyyət standartlarına uyğun hazırlanmış müasir təhsil proqramı əsasında təhsil alma imkanı əldə edəcəklər. Proqram çərçivəsində hər bir tələbə AZCON Holding ekosistemində fəaliyyət göstərən şirkətlərdən biri ilə birbaşa əlaqələndiriləcək və real layihələr üzərində praktiki təcrübə qazanacaq.

"TUM International GmbH"nın (TUMint) icraçı direktoru Friederike Hettinger bildirib ki, bu gün burada Azərbaycanın gələcəyi üçün həm iddialı, həm də strateji əhəmiyyət daşıyan bir tərəfdaşlığı elan etmək mənim üçün böyük şərəfdir. Biz kompüter elmləri üzrə bakalavr proqramı ilə başlayırıq və daha sonra kompüter mühəndisliyi üzrə bakalavr proqramını təqdim edəcəyik.

"Bu, sadəcə yeni bir məktəbin açılışı deyil. Bu, Bakıda kompüter elmləri, data analitikası, süni intellekt və kibertəhlükəsizlik sahələrində regional mükəmməllik mərkəzinin qurulmasına yönəlmiş uzunmüddətli öhdəliyin başlanğıcıdır, — deyə icraçı direktor vurğulayıb.

AzTU-nun rektoru Vilayət Vəliyev çıxışında diqqətə çatdırıb ki, AZSET layihəsi Azərbaycanın rəqəmsal gələcəyinə investisiyadır, universitet-sənaye əməkdaşlığının yeni modelidir və regional texnologiya liderliyinə doğru atılmış strateji addımdır. Bu layihənin ən böyük nəticəsi yüksəksəviyyəli mühəndislər, yeni texnologiyalar, startap ekosistemi və beynəlxalq rəqabətqabiliyyətli insan kapitalı olacaq.

Sonra "AZCON School of Engineering and Technology" — AZCON Mühəndislik və Texnologiya Məktəbinin (AZSET) təsis edilməsinə dair müqavilə imzalanıb.

Müqaviləni AZCON Holding tərəfindən icraçı direktor Şahin Babayev, Azərbaycan Texniki Universiteti tərəfindən rektor Vilayət Vəliyev və "TUM International GmbH" (TUMint) tərəfindən icraçı direktor Friederike Hettinger imzalayıblar.

**Yetər KƏRİMLİ**

# Nazir müavini Firudin Qurbanov Tovuzda təhsil ictimaiyyəti, valideyn və şagirdlərlə görüşüb

**Mayın 15-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Tovuz rayonuna səfər edib. Səfər çərçivəsində bir sıra görüşlər keçirilib, təhsil müəssisələrinə baxış olub və vətəndaş qəbulu təşkil edilib.**









Əvvəlcə nazir müavini Firudin Qurbanov Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov ilə birlikdə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub.

Səfər çərçivəsində Firudin Qurbanov Tovuz rayonu Bozalqanlı kənd tam orta məktəbində olub. Məktəbdə yaradılmış tədris şəraiti və şagirdlərin təlim prosesi ilə tanış olan nazir müavininə təhsil müəssisəsinin fəaliyyəti, tədris göstəriciləri barədə məlumat verilib.

Daha sonra Respublika fənn olimpiadalarının və "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibi olan şagirdlər, eləcə də onların valideynləri ilə görüş keçirilib. Görüşdə şagirdlərin əldə etdikləri uğurların sistemli hazırlığın, müəllim əməyi və valideyn dəstəyinin birgə nəticəsi olduğu bildirilib.

Valideynlərlə söhbət zamanı uşaqların təlim-tərbiyəsində ailənin rolunun xüsusi əhəmiyyət daşıdığı qeyd olunub. Bildirilib ki, şagirdlərin təhsil nəticələrinin yüksəlməsində məktəblə yanaşı, valideynlərin dəstəyi, övladlarının təhsil prosesinə diqqəti, onların motivasiyasının formalaşdırılması və düzgün istiqamətləndirilməsi mühüm rol oynayır. Eyni zamanda ailə-məktəb əməkdaşlığının gücləndirilməsinin şagirdlərin həm akademik nailiyyətlərinə, həm də şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərdiyi vurğulanıb.

Səfər çərçivəsində uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuş, çalışmanın yaş həddinə çatmış bir qrup müəllimlə də görüş keçirilib. Görüş zamanı vurğulanıb ki, uzunillik pedaqoji təcrübəyə malik müəllimlərin bilik və peşəkar yanaşmaları təhsil ənənələrinin qorunub saxlanılması, müəllim peşəsinin nüfuzunun artırılması və gənc müəllimlərin formalaşması baxımından mühüm rol oynayır. Qeyd edilib ki, sözügedən müəllimlərin illər ərzində qazandıqları təcrübə, məktəb idarəçiliyi, şagirdlərlə iş və pedaqoji yanaşmalarla bağlı tövsiyələri bu gün də təhsil mühiti üçün dəyərli resurs hesab olunur.

Nazir müavini həmçinin Qazax-Tovuz regionu üzrə ümumi təhsil müəssisələrinin gənc direktor və müəllimləri ilə görüşüb. Görüş zamanı təhsildə müasir yanaşmaların tətbiqi, məktəb idarəçiliyində innovativ metodlar, müəllimlərin peşəkar inkişaf imkanları və məktəbdə sağlam təhsil mühitinin formalaşdırılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Gənc təhsil idarəçiləri və müəllimlər öz təşəbbüsləri, fəaliyyət istiqamətləri və qarşılaşdıqları çağırışlarla bağlı fikirlərini səsləndiriblər.

Səfər zamanı Firudin Qurbanov vətəndaşların qəbulunu keçirib. Qəbul zamanı edilən hər bir müraciətin operativ araşdırılması və qanunvericiliyə uyğun həll olunması ilə bağlı müvafiq tapşırıqlar verilib.

# Türk xalqlarının mədəni-mənəvi irsinin qorunması və təbliğinə dövlət səviyyəsində dəstək göstərilir




## Nazir müavini Firudin Qurbanov "I Türkoloji Qurultayın 100 illiyi: dil məsələləri" adlı beynəlxalq elmi konfransın açılışında iştirak edib



**Mayın 14-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "I Türkoloji Qurultayın 100 illiyi: dil məsələləri" adlı beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib. Azərbaycan Dövlət Pedaqoji Universiteti, TÜRKSOY, Yunis Əmrə İnstitutu, Daşkənd Beynəlxalq Universiteti və ADPU-nun Filologiya fakültəsinin birgə təşkilatçılığı ilə 14-15 may tarixlərində əyani və onlayn formatda təşkil olunan beynəlxalq konfransda Azərbaycanla yanaşı Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Koreya, Rusiya, Ukrayna, Moldova, Estoniya, Əfqanıstan və digər ölkələrdən alim və tədqiqatçılar bir araya gəliblər.**

Açılış mərasimində dövlət rəsmiləri, təhsil ictimaiyyətinin nümayəndələri, universitet rəhbərliyi və professor-müəllim heyəti, eləcə də Azərbaycan və xarici ölkələrin tanınmış türkoloq alimləri iştirak ediblər.

Konfransın açılışında giriş nitqi ilə çıxış edən ADPU-nun rektoru Cəfər Cəfərov bildirib ki, Birinci Bakı Türkoloji Qurultayı yalnız dilçilik tarixinin mühüm hadisəsi deyil, bütövlükdə türk dünyasının elmi və mədəni birliyinin formalaşmasında xüsusi rol oynamış tarixi platformadır. Qeyd edilib ki, türkoloji fikir bu gün yeni mərhələyə — "Rəqəmsal türkologiya" dövrünə qədəm qoyur və süni intellekt, rəqəmsal lüğətlər, milli korpuslar və ortaq terminoloji platformalar gələcəyin əsas inkişaf istiqamətlərini müəyyən edir. Cəfər Cəfərov vurğulayıb ki, bu gün Pedaqoji Universitet həmin tarixi missiyanı davam etdirərək "Rəqəmsal türkologiya" mərhələsində ortaq elmi terminologiyanın, süni intellekt əsaslı dil texnologiyalarının və türk dövlətləri arasında təhsil inteqrasiyasının inkişafına töhfə verməyə davam edir.

Çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın türk xalqlarının elmi fikir tarixində mühüm mərhələ təşkil etdiyini bildirib. Qeyd edib ki, 1926-cı ildə Bakıda keçirilən bu mötəbər elmi toplantı ortaq dil, əlifba, milli-mədəni dəyərlərin qorunması və türkologiya elminin sistemli inkişafı baxımından xüsusi əhəmiyyət daşıyıb. Akademik ana dilinin xalqın tarixi yaddaşını, milli kimliyini və mənəvi irsini yaşadan əsas dəyərlərdən biri olduğunu vurğulayıb.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında qeyd edib ki, ölkə başçısının imzaladığı "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam qurultayın tarixi və elmi əhəmiyyətini daha da möhkəmləndirir, türkologiya elminin inkişafına, türk xalqlarının mədəni-mənəvi irsinin qorunması və təbliğinə dövlət səviyyəsində dəstək göstərir, eyni zamanda Qurultayın irsinin müasir elmi mühitdə aktual və əhəmiyyətli olmasını təmin edir. Qloballaşma, informasiya texnologiyalarının və süni intellektin sürətli inkişafı, eyni zamanda kütləvi kommunikasiya vasitələrinin təsiri nəticəsində milli dilin yeni təzyiq mexanizmləri ilə üz-üzə qaldığını bildirən nazir müavini bu istiqamətdə dilimizin təhlükəsizliyinin qorunması istiqamətində təşəbbüslərin zəruri olduğunu bildirib.

Firudin Qurbanov ölkə başçısının müvafiq sərəncamına uyğun olaraq geniş tədbirlər həyata keçirildiyini qeyd edib və Elm və Təhsil Nazirliyi tərəfindən də Tədbirlər Planı çərçivəsində Qurultayın 100 illik yubileyi münasibətilə simvolik olaraq 100 nəfər tələbənin təqaüdə layiq görülməsinin nəzərdə tutulduğunu bildirib.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov Birinci Türkoloji Qurultayın türk xalqlarının milli özünüdərk prosesində və ortaq mədəni dəyərlərin formalaşmasında mühüm rol oynadığını qeyd edib. Əlavə edib ki, bu tarixi irsin öyrənilməsi və gələcək nəsillərə çatdırılması həm elmi, həm də ictimai baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq konfransda iştirak edən Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün Azərbaycan ilə Türkiyə arasında strateji müttəfiqlik münasibətlərinin ortaq tarix, dil, mədəniyyət və mənəvi dəyərlər üzərində formalaşdığını vurğulayaraq qeyd edib ki, Birinci Türkoloji Qurultay türk dünyasının elmi və mədəni inteqrasiyası baxımından mühüm tarixi hadisələrdən biridir və bu irs bu gün də türk xalqları arasında əməkdaşlığın möhkəmlənməsinə xidmət edir.

Çıxış edən ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Mahirə Hüseynova universitetin türk dünyasının ali təhsil və elm müəssisələri ilə əməkdaşlığının genişləndirilməsi istiqamətində həyata keçirilən işlərdən danışıb, bu kimi beynəlxalq elmi platformaların akademik əlaqələrin inkişafına mühüm töhfə verdiyini bildirib.

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev Birinci Türkoloji Qurultayın humanitar elmlərin inkişafında, dil və ədəbiyyat sahəsində aparılan tədqiqatların istiqamətləndirilməsində mühüm rol oynadığını qeyd edib. O, ana dilinin qorunması və elmi şəkildə təbliğinin ali təhsil müəssisələrinin əsas vəzifələrindən biri olduğunu vurğulayıb.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru Nadir Məmmədli isə Azərbaycan dilçiliyinin inkişafında Birinci Türkoloji Qurultayın mühüm rolundan bəhs edib. O, ana dilinin elmi əsaslarla araşdırılmasının, dil irsinin qorunmasının və yeni nəsillərə çatdırılmasının aktual məsələlərdən biri olduğunu diqqətə çatdırıb.

ADPU-nun Filologiya fakültəsinin dekanı Könül Həsənova Birinci Türkoloji Qurultayın elmi irsinin gənc nəslə çatdırılması, ana dilinə sevginin gücləndirilməsi və milli-mənəvi dəyərlərin təbliğinin əhəmiyyətindən bəhs edib. Dekan Könül Həsənova bu istiqamətdə Pedaqoji Universitetin Filologiya fakültəsində aparılan ardıcıl və sistemli fəaliyyətlər haqqında məlumat verib.

Azərbaycan Milli Aerokosmik Agentliyinin Elmi-Tədqiqat Aerokosmik İnformatika İnstitutunun direktoru, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan təmsilçisi Elçin İgəndərzadə, Türkiyənin Qafqaz Universitetinin professoru Səlcuq Ural, Özbəkistan Asiya Beynəlxalq Universitetinin prorektoru Əzəmət Əkbərov, Azərbaycan Dillər Universitetinin professoru Adil Babayev çıxışlarında türk dillərinin öyrənilməsi, müqayisəli tədqiqi və ortaq elmi ənənələrin inkişaf etdirilməsinin müasir türkologiyanın əsas istiqamətlərindən biri olduğunu qeyd ediblər.

Rəsmi açılış mərasimindən sonra konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

Qeyd edək ki, konfransın növbəti günündə qonaqlar ADPU Şamaxı filialına səfər ediblər.

# "Dayanıqlı və davamlı şəhər inkişafı üçün insan kapitalının formalaşdırılması"

## Nazir müavini İdris İsayev beynəlxalq konfransın açılışında çıxış edib






**Bakı Dövlət Universiteti (BDU) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə təşkilatçılığı ilə "Dayanıqlı və davamlı şəhər inkişafı üçün insan kapitalının formalaşdırılması" mövzusunda beynəlxalq konfrans mayın 15-də öz işinə başlayıb.**

Konfrans 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində təşkil olunan "Bakı Şəhərsalma Həftəsi 2026" platformasının əsas tədbirlərindən biridir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən keçirilən Ümumdünya Şəhərsalma Forumu dayanıqlı urbanizasiya sahəsində qlobal dialoq üçün ən mühüm platformalardan biri hesab olunur.

Açılış nitqi ilə çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, müasir şəhərlərin davamlı və dayanıqlı inkişafı yalnız infrastruktur və texnoloji həllərlə deyil, ilk növbədə, yüksəkixtisaslı insan kapitalı ilə müəyyən olunur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı yenidənqurma və "ağıllı şəhər" konsepsiyalarının tətbiqi ölkənin şəhərsalma inkişaf modelini keyfiyyətcə yeni mərhələyə yüksəldir. Bu proses isə uzunmüddətli perspektivdə bu dəyişiklikləri davam etdirəcək peşəkar kadrların hazırlanmasını zəruri edir. Bu baxımdan universitetlərin rolunun yenidən düşünülməsinin vacibliyini qeyd edən rektor bildirib ki, müasir dövrdə rəqəmsal texnologiyalar, məlumat əsaslı planlaşdırma və simulyasiya modelləri urban inkişafın ayrılmaz hissəsinə çevrilməlidir. Bu istiqamətdə tələbələrin real sektorla əlaqələrinin gücləndirilməsi və praktiki təcrübə imkanlarının artırılması xüsusi əhəmiyyət daşıyır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanov bildirib ki, insan kapitalının gücləndirilməsi yeni şəhər gündəliyinin və dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsinin əsas komponentlərindən birinə çevrilib. Bu baxımdan universitetlər və tədqiqat institutlarının rolu əhəmiyyətlidir. Ali təhsil müəssisələri yalnız akademik təhsil verən qurumlar deyil, həm də müvafiq siyasətin hazırlanması, innovasiya və tədqiqat proseslərinin əsas ocaqlarıdır. Bu kontekstdə dövlət qurumları ilə akademik dairələr arasında əməkdaşlıq şəhər idarəçiliyi sistemlərinin qurulması üçün mühüm əhəmiyyət kəsb edir.

Tədbirdə iştirak edən elm və təhsil nazirinin müavini İdris İsayev isə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası ərəfəsində belə bir konfransın keçirilməsinin mühüm əhəmiyyət daşıdığını bildirib, konfransın işinə uğurlar arzulayıb. Nazir müavini qeyd edib ki, dünyada urbanizasiya proseslərinin sürətlənməsi müxtəlif qlobal çağırışlar və problemlər yaradır. Hazırda şəhərsalma təkcə memarlıq məsələsi deyil, iqtisadi, sosial, iqtisadi, ekoloji, humanitar məsələdir. Bildirib ki, təhsil infrastrukturumuz müasirləşdirilib, məzmunumuzun keyfiyyəti artırılıb, beynəlxalq rəqabətlilik artırılıb. Əgər biz ölkənin davamlı, dayanıqlı inkişafını təmin etmək istəyiriksə, ilk növbədə insan kapitalına diqqət yetirməliyik. Təhsil sistemimiz bu proseslərin önündə dayanmalıdır. Bu istiqamətdə yeni ixtisaslar, proqramlar təsdiq edilir, tələbə qəbulu planları artırılır. Məqsəd ondan ibarətdir ki, şəhərlərimizin dayanıqlı və davamlı inkişafı üçün tələb olunan ixtisaslara, kvalifikasiyalara uyğun kadr hazırlığı təmin edilsin.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, şəhərsalma eyni zamanda gələcəyə baxış deməkdir. Gələcəyin şəhərləri yalnız bu günün tələbatını deyil, gələcək nəsillərin təhlükəsiz və ekoloji cəhətdən sağlam mühitdə yaşamasını da təmin etməlidir. Məhz buna görə "dayanıqlı inkişaf" anlayışı ön plana çıxır və davamlı inkişaf edən şəhər modellərinin qurulması vacib sayılır.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilməsinin Azərbaycanın dövlətçilik ənənələrinin və ölkənin beynəlxalq nüfuzunun nəticəsi olduğunu deyib: "Bu, hər birimiz üçün qürurverici hadisədir. Hesab edirəm ki, bugünkü konfransda da gələcək inkişafla bağlı mühüm məsələlər müzakirə olunacaq, mövcud boşluqların aradan qaldırılması üçün yeni yanaşmalar və təkliflər irəli sürüləcək".

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova vurğulayıb ki, şəhərlərin qurulması yalnız urbanistlərin, memarların və ya inşaatçıların fəaliyyəti ilə məhdudlaşmır. Bu prosesdə ekoloqların, mühəndislərin, siyasətçilərin, sosioloqların və digər sahələrin mütəxəssislərinin xüsusi rolu var: "Universitetlərin qarşısında duran əsas vəzifələrdən biri interdisiplinar proqramların yaradılması və daha geniş profilli mütəxəssislərin hazırlanmasıdır. Elmi tədqiqatlarda əməkdaşlıq və inteqrasiya mühüm nəticələr verə bilər. Memarlıq ekologiya, şəhərsalma sosiologiya, konstruktiv dayanıqlıq tətbiqi riyaziyyatla birgə araşdırılmalıdır. İT texnologiyaları isə demək olar ki, bütün sahələrdə və istiqamətlərdə tətbiq olunmalı və öz töhfəsini verməlidir".

Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi İqor Qarafuliç bildirib ki, Azərbaycanda inkişaf məsələlərinin geniş və ciddi şəkildə müzakirə olunması diqqətçəkən məqamlardandır: "WUF 13-ün Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq dialoq platforması kimi rolunu daha da gücləndirir. Bu tədbir yalnız şəhərsalma məsələlərinin deyil, həm də mənzil təminatı, əlçatanlıq və planlaşdırma kimi qlobal çağırışların müzakirəsi baxımından mühüm platformadır. Dünyada münaqişələrin artdığı bir dövrdə Azərbaycanın belə bir beynəlxalq dialoqa ev sahibliyi etməsi çox əhəmiyyətlidir".

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, ADA Universitetinin dövlət və xarici əlaqələr üzrə prorektoru Fariz İsmayılzadə isə diqqətə çatdırıb ki, WUF13 yalnız şəhərsalma, ekologiya və ətraf mühit məsələlərinin müzakirəsi platforması deyil, Azərbaycanın beynəlxalq diplomatik şəbəkəsinin genişlənməsi baxımından da əhəmiyyətlidir: "Şəhərsalma və Qarabağın yenidən qurulması regionda davamlı sülhün möhkəmləndirilməsi üçün mühüm amillərdən biridir. Qarabağın yenidən qurulması üzrə Azərbaycan təcrübəsi dünyada unikal model kimi dəyərləndirilə bilər. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu proses Qarabağın yaşıl zona və dayanıqlı inkişaf məkanına çevrilməsini hədəfləyir".

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyev şəhərsalma problemlərinin multidisiplinar xarakter daşıdığını və bütün elmi istiqamətlərin birgə iştirakını tələb etdiyini deyib: "Müasir şəhərsalma prosesləri rəqəmsallaşma və süni intellekt texnologiyalarının tətbiqi olmadan mümkün deyil. Prezident İlham Əliyev tərəfindən "ağıllı şəhər" konsepsiyası strateji hədəf kimi müəyyən edilib və bu istiqamətdə mühüm işlər görülür. Lakin bu proses yalnız xarici texnologiyaların tətbiqi ilə deyil, milli kadr potensialının hazırlanması ilə mümkün ola bilər. Bunun üçün elmi-tədqiqat institutlarının və ixtisaslaşmış qurumların yaradılması da nəzərdən keçirilə bilər".

Rəsmi açılış mərasimindən sonra konfrans öz işini panel sessiyaları ilə davam etdirib.

Konfrans insan kapitalının təhsil sistemləri, elmi-tədqiqat potensialı, peşəkar hazırlıq, institusional bacarıqlar və rəqəmsal savadlılığın davamlı şəhər inkişafında həlledici rolunu ön plana çıxaracaq. Müzakirələrdə inklüziv və dayanıqlı şəhərlərin inkişafı, iqlim dayanıqlılığı, əlçatan mənzil təminatı, rəqəmsal transformasiya və süni intellektin şəhər idarəçiliyində rolu, həmçinin institusional və hüquqi çərçivələrin gücləndirilməsi kimi mövzulara xüsusi diqqət yetirilib.

Səhifəni hazırladı: Mərziyyə KAZIMZADƏ

# Hökumətlərarası Təqaüd Proqramları tələbəsi

# “Gələcəkdə məndən yalnız xoş xəbərlər eşidəcəksiniz”

**Müasir dövrdə insan kapitalının inkişaf etdirilməsi ölkəmizdə ali təhsil sistemi qarşısında mühüm vəzifələr qoyur. Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, güclü kadr potensialının formalaşdırılması baxımından Azərbaycan hökuməti ilə bir sıra xarici ölkələr arasında bağlanmış müqavilələr əsasında həyata keçirilən Hökumətlərarası Təqaüd Proqramları (HTP) mühüm əhəmiyyət kəsb edir. Proqram gənclərimizin dünyanın nüfuzlu ali təhsil müəssisələrində yüksəksəviyyəli mütəxəssislər kimi formalaşmasına öz töhfələrini verir. Belə gənclərdən biri də Qazaxıstanın əl-Fərabi adına Milli Universitetinin magistratura səviyyəsi üzrə tələbəsi Sərvan İmanovdur. S.İmanov proqramın əhəmiyyəti, Qazaxıstanda təhsil həyatı, uğurları barədə danışır. Əvvəlcə müsahibimizi oxuculara təqdim edirik.**

***11 avqust 1999-cu il tarixində Füzuli rayon, Böyük Bəhmənli kəndində anadan olmuşam. Orta təhsilimi 2017-ci ildə Akademik Zərifə Əliyeva adına liseydə başa vurmuşam. Elə həmin il Bakı Dövlət Universitetinin "Hüquqşünaslıq" ixtisasına daxil olmuşam. 2022-ci ildə təhsilimi başa vurub, iş həyatına atıldım. Özümü, beynəlxalq humanitar minatəmizləmə ilə məşğul olan "Mines Advisory Group (MAG)" şirkətində tapdım. Həmin şirkət dünyanın ondan çox ölkəsində fəaliyyət göstərir və öz uğurlu fəaliyyəti ilə Nobel Sülh mükafatına layiq görülüb. Öncə tərcüməçi kimi işə başladım, işğaldan azad olunmuş ərazilərə dəfələrlə səfərlərimiz olub. Orda ermənilərin törətdiyi vəhşilikləri öz gözlərimlə gördüm. Keçmiş məcburi köçkün kimi, xalqımın üzləşdiyi bütün çətinlikləri orada hiss etdim. Sonra şirkətdaxili baş tərcüməçi, daha sonra isə "Satınalma, logistika və nəqliyyat" bölməsinin rəisi vəzifəsinə yüksəldim. Ümumilikdə 3 il iş stajım var. Və özümü beynəlxalq sahədə görürəm. İş zamanı bir çox sertifikatlara layiq görülmüşəm. 5 dil bilirəm (rus, türk, inglis, alman (bir az qazax)) və yeni biliklər və dilləri öyrənməyə də, daim inkişaf etməyə can atıram.***




**Sərvan İmanov**

**Universitet üzrə keçirilən “Fərabi Aləmi” tələbə və gənc alimlərin beynəlxalq elmi-praktik konfransında iştirak etdim. Hər elmi sahə üzrə kateqoriyalara bölünən konfransda, mən "Beynəlxalq hüquq" kateqoriyasında I yerə layiq görüldüm.**

**Çıxış etdiyim mövzü: "TÜRKPA və TDT-in inteqrasiyası çərçivəsində Orta dəhliz marşrutu üzrə avtomobil nəqliyyatının logistik inkişafı üzrə beynəlxalq hüquqi əməkdaşlığın perspektivləri" idi.**

**Məqsədim beynəlxalq mühitdə vətənimi, dövlətimi, xalqımı, özümü təmsil etmək və cəmiyyətimizə faydalı bir şəxs olmaqdır. Əminəm ki, doğru yoldayam və əlimdən gələnin ən yaxşısını etməyə çalışıram.**

**Azərbaycanımızın adət-ənənələrini, həqiqətlərimizi xarici tələbələrə və yerli insanlara çatdırdıq.**

**Artıq birinci təhsil ilimi başa vururam. Mənim üçün çox maraqlı və yaddaqalan il olduğunu düşünürəm.**

## “Mənə göstərilən etimadı ən yüksək şəkildə doğruldacağam”





*— Qazaxıstanda ali təhsil həyatınız necə başladı? Bu yolda Hökumətlərarası Təhsil Proqramının rolu və əhəmiyyəti barədə nə deyərdiniz?*

— 2025-ci ilin mayında bizim şirkətin büdcəsi mühüm şəkildə azaldı və işçilər ixtisar olundu, şirkət bağlandı. Həm iş, həm təhsillə bağlı fərqli-fərqli proqramlara müraciət etməyə başladım. Həmin proqramların biri də Qazaxıstanın Hökumətlərarası Təqaüd Proqramı (HTP) oldu. Sənədlərimi topladım və müraciət etdim. Daxilimdə xoş duyğular var idi, əmin idim ki, bu istiqamət mənim üçün xeyirli-uğurlu olacaq. Bir neçə digər proqramlardan müsbət cavab məktubları aldım, lakin seçimimi Qazaxıstan üzərində saxladım.

*— Qazaxıstanın ali təhsil sistemi, eləcə də təhsil aldığınız universitet barədə əvvəlcədən məlumatınız var idimi? Bu ölkədə təhsil həyatınız sizi qane etdimi?*

— Daha öncə, açığı, elə də məlumatlı deyildim, çünki maraqlanmamışdım. Lakin ölkə olaraq Qazaxıstanın irəliləyişini və inkişafı barədə məlumatlı idim. Artıq proqrama müraciət mərhələsində Qazaxıstan barədə tam araşdırma eləməyə başladım, sənədləşmə, orada təhsil, universitet və şəhər, Qazaxıstanda həyat və s. məsələləri bütövlüklə araşdırdım. Lazım olan sualları həm EATDA-ya, həm Qazaxıstanın Təhsil Nazirliyinə, həm Bakıdakı səfirliyinə yönləndirdim. Prosesin bütün mərhələlərində mənə tam dəstək olundu.

Düşünürəm ki, hər kəs öz araşdırmasını aparmalıdır, indiki dövrdə yaşamağımızın üstünlüyü, məlumatlara çıxışın asan olmasıdır. Mən də bundan tam formada istifadə etdim. Sonradan Qazaxıstanın təhsil üzrə dünyada "Global Education Index" hesabatında 18-ci pillədə olduğunu, oxuduğum əl-Farabi adına Qazax Milli Universitetinin isə "QS" reytinqində 163-cü yeri tutduğunu öyrəndim.

Buradakı təhsil məni qane edir.

*— Əl-Farabi adına Qazax Milli Universiteti ölkənin nüfuzlu ali məktəblərindəndir. Universitetin təhsil mühiti barədə nə deyərdiniz?*

— Təhsil mühiti çox yaxşıdır, deyərdim. Bunu həm xarici tələbələrin çoxluğu, həm universitetin elmə verdiyi dəstəklə deyə bilərəm. Universitetin kampusu çox gözəldir. Mənim fakültəmin binası başqa ünvanda yerləşir, lakin əsas korpusla əlaqəliyik. Fakültənin rəhbərliyi daim bizə dəstək verir, bunu həm universitetdaxili, həm xarici yarışlarla, konfranslarla və s. göstərir.

Universitetdə təhsil həyatım maraqlı keçir. Bir sıra tədbirlərdə, bilik yarışlarında iştirak etmişəm.

Cari ilin əvvəlində Kaznu Universitetinin komandasının bir parçası olaraq mən də Daşkənd Dövlət Hüquq Universitetində (Tashkent State Univeristy of Law) keçirilən Jessup Moot Court Mərkəzi Asiya (Qazaxıstan, Özbəkistan, Qırğızıstan) regional raundları çərçivəsində iştirak etdim. Mənim üçün çox maraqlı və faydalı təcrübə oldu. Qazaxıstandan 8 universitetin iştirak etdiyi yarışmada biz 5-ci yeri tutduq. Bizim komandanın yazdığı "memorial" isə ən yaxşı memorial seçildi. 15 ildən çox universitetimiz bu yarışmada iştirak etmirdi, bu, bizim üçün çox böyük nəticə oldu. Qeyd edim ki, qrupumuzda ən yaxşı nəticələri mən göstərdim. Onu da deyim ki, “Philip C. Jessup Moot Court Competition” 1960-cı ildən bəri dünyanın ən böyük beynəlxalq hüquq məhkəmə yarışmalarından biridir. Burada 700 ölkədən "Hüquqşünaslıq" istiqamətində 100-ə yaxın universitet iştirak edir. BMT-nin Beynəlxalq Məhkəməsində (ICJ) iki ölkə arasında mübahisənin simulyasiyası şəklində ingilis dilində keçirilən debatda bütün dünyadan 2000-ə yaxın tələbə iştirak edir.

Martın 31-də Qazaxıstanın Xəzər Universitetində keçirilən “Xüsusi hüququn aktual problemləri” oxuları çərçivəsində tələbə və gənc alimlərin beynəlxalq elmi-praktik konfransında iştirak etdim. 40-a yaxın iştirakçının qatıldığı konfransda ən yaxşı spiker nominasiyasında qalib gəldim. Çıxış etdiyim mövzü: "TÜRKPA və TDT-in inteqrasiyası çərçivəsində Orta dəhliz marşrutu üzrə avtomobil nəqliyyatının logistik inkişafı üzrə beynəlxalq hüquqi əməkdaşlığın perspektivləri" idi.

Aprelin 7-8 -də universitet üzrə keçirilən “Fərabi Aləmi” tələbə və gənc alimlərin beynəlxalq elmi-praktik konfransında iştirak etdim. Hər elmi sahə üzrə kateqoriyalara bölünən konfransda, mən "Beynəlxalq hüquq" kateqoriyasında I yerə layiq görüldüm. Bu mövzu üzrə 40-a yaxın magistr tələbələri iştirak etdi. Çıxış etdiyim mövzunun adı "Siyasi dialoqdan hüquqi inteqrasiyaya: Türk Dövlətləri Təşkilatlatı və ortaq hüquqi bazanın yaradılması ehtiyacı" idi.

Aprelin 21-də Qazaxıstan Respublikasının Cinayət hüququ (xüsusi hissə) üzrə Fənn olimpiadasında hakim rolunda iştirak etdim. Fakültəmizin nəzdində keçirilən yarışda 2-ci kursun tələbələri qalib gəldi.

Artıq birinci təhsil ilimi başa vururam. Mənim üçün çox maraqlı və yaddaqalan il olduğunu düşünürəm.

*— Beynəlxalq hüquq ixtisası sizin üçün nə dərəcədə maraqlı və cəlbedicidir?*

— Beynəlxalq hüquq ixtisasını seçməyimdə bir neçə məqam rol oynadı. Öncə "hüquq"un özü hər ölkədə fərqlidir və məsələn, "Cinayət hüququ" magistraturasını Qazaxıstanda oxumağın mənim üçün heç bir marağı və mənası olmazdı. İkinci məqam mənim daha öncəki beynəlxalq şirkətdə olan iş təcrübəmin rol oynamasıdır. Üçüncüsü isə özümü beynəlxalq sahədə görürəm. Bu, ya diplomatiya sahəsi və ya hər hansısa digər beynəlxalq təşkilatlarda işləmək və cəmiyyətə fayda vermək istəyidir. Mənə burada öyrədilən fənlər maraqlıdır, həmçinin müəllimlərin bir çoxu yerli xaricdə təhsil "Dövlət proqramı" olan “Bolashak” ilə dünyanın ən nüfuzlu universitetlərində təhsil almış şəxslərdir, onlardan öyrənəcək hələ çox şey var.

Artıq Almatı şəhərindəki Azərbaycan Səfirliyinin, diasporamızın nümayəndələri və digər yerli vəzifəli şəxslərlə tanışlıqlar qurmuşam. Diplomatiyanın əlaqələr qurmaq və onları inkişaf etdirməyi özündə ehtiva etdiyini düşünürəm. Seçdiyim diplom işi isə həm özümün marağım, həmçinin dövlətimizin prioritet inkişaf sahəsi olan “Türk Dövlətləri Təşkilatı” üzrədir.

*— Bu universitetdə əcnəbi tələbələrə münasibət necədir? Qeyd etmək istədiyiniz hansısa tədbirlər oldumu? Xüsusən də türkdilli ölkələrdən olan gənclərin bir arada olması və əlaqələri barədə nə deyərdiniz?*

— Daha öncə bildirdiyim kimi, bizim universitetdə xarici tələbələrin sayı yüksəkdir. Hətta bütün Qazaxıstan üzrə bu yöndə ən böyük göstərici bizim universitetə məxsusdur. Və müvafiq olaraq da münasibət yaxşıdır. Tədbir anlamında, həm fakültədaxili, həm universitetdaxili böyük tədbirlər olur. Məsələn, Novruz bayramında, Xalqların birliyi günü və s. bu günlərdə hər ölkədən olan tələbələr öz mədəniyyətlərini nümayiş etdirir. Biz də Azərbaycanımızın adət-ənənələrini, həqiqətlərimizi xarici tələbələrə və yerli insanlara çatdırdıq. Bildiyiniz kimi, Türkdilli dövlətlərarası “Orxun” tələbə mübadilə proqramı var, bu proqramla bir neçə tələbə ilə tanış olduq. Onlarla əlaqə saxlayırıq. Mən özüm isə Qazaxıstana gəlməmişdən öncə, artıq burada təhsil alan gənclərin bəzilərini tapdım və əlaqəyə keçdim. Mənimlə eyni ildə gələn tələbə yoldaşlarımla da əlaqə saxladım, birlikdə vatsap qrupu yaratdım, onlarla mütəmadi görüşlərimiz olur, onların sənədləşmə və digər problemlərinin həllində birbaşa iştirak edirəm. Həm yaşda, həm təcrübədə ən böyük olduğuma görə bunu özümə borc bilirəm. Düşünürəm ki, dünyanın istənilən nöqtəsində olan azərbaycanlılar bir olmalıdır. Güc birlikdədir.

*— HTP çərçivəsində xaricdə təhsil almaq istəyən gənc yaşıdlarınıza nə kimi tövsiyələriniz olardı?*

— Əvvəla hər- birilərini maraqlarına görə təbrik edirəm. Artıq ilk addımı atmış olurlar. Əsas məsələ araşdırma aparmaqdır. Seçdiyiniz istiqamət üzrə tam araşdırma aparın ki, sonra gedib problem yaşamayasınız. Daim inkişaf eləməyə çalışın, yeni şeylər öyrənin. Mən Qazaxıstan HTP barədə artıq “Yaddaş kitabçası”nı hazırlamışam və EATDA ilə bölüşmüşəm. Uyğun bilsələr bunu tələbə yoldaşlarla bölüşəcəklər. Bu yaddaş kitabçası, Qazaxıstan HTP ilə maraqlanan şəxslər üçün nəzərdə tutulub. Buradakı məlumatlar daha çox “Əl-Farabi adına Qazax Universiteti (KazNU)” ilə bağlıdır, lakin ümumi proses digər universitetlər ilə oxşardır. Burada olan məlumatlar daha çox qalib gəldikdən sonrakı prosesləri (həm sənədləşmə, həm qəbul, həm də bəzi digər məsələləri) özündə ehtiva edir.

*— Gələcək planlarınız barədə nə deyərdiniz?*

— İndi olduğum yerdən məmnunam və məqsədim tam olaraq buradan ən yüksək formada hər şey qazanmaqdır. Ümumi istiqamət isə, dediyim kimi beynəlxalq mühitdə vətənimi, dövlətimi, xalqımı, özümü təmsil etmək və cəmiyyətimizə faydalı bir şəxs olmaqdır. Əminəm ki, doğru yoldayam və əlimdən gələnin ən yaxşısını etməyə çalışıram. Ümidvaram ki, gələcəkdə məndən yalnız ən xoş xəbərləri eşidəcəksiniz və daim mənə göstərilən etimadı ən yüksək şəkildə doğrultmuş olacağam.

**Oruc MUSTAFAYEV**

# “ABŞ-də Qarabağ Universitetinin adını eşidəndə...”

**Qarabağ Universitetinin yaranmasından 2 il ötür. Qısa müddətdə yaranmasına baxmayaraq ali təhsil ocağı artıq bir çox uğurlara imza atıb. Bu yaxınlarda universitetin “Hüquqşünaslıq” ixtisası üzrə təhsil alan tələbələrindən ibarət “Jessup” komandası Vaşinqtonda dünyanın ən nüfuzlu Philip C. Jessup Beynəlxalq Məhkəmə Müsabiqəsində (Philip C. Jessup International Law Moot Court Competition), eyni ixtisas üzrə beynəlxalq ticarət hüququ sahəsində “Vic Moot” komandası isə Avstriyanın Vyana şəhərində keçirilən  Vis Beynəlxalq Kommersiya Arbitrajı Müsabiqəsində (Willem C. Vic Internotal Commercial Arbitration Moot) iştirak ediblər. Tələbələrlə görüşüb müsabiqədən hansı təəssüratlarla qayıtdıqlarını öyrənmək istədik. Elmira Cəfərova dünyanın ən çətin və genişmiqyaslı, 800-ə yaxın hüquq məktəbinin iştirak etdiyi “Jessup” Beynəlxalq Məhkəmə Müsabiqəsində ölkəmizi layiqincə təmsil edib.**



## Tələbələrimiz hüquqi biliklərini beynəlxalq müsabiqədə sınadılar

## Rəsmi veb-sayt istifadəyə verilib

**Qarabağ Universitetinin yeni rəsmi veb-saytı istifadəyə verilib. Müasir texnoloji tələblər və istifadəçi rahatlığı nəzərə alınaraq hazırlanmış https://qu.edu.az platforması universitetin fəaliyyəti barədə məlumatların daha operativ, əlçatan və sistemli şəkildə təqdim olunmasını təmin edir.** Dünyanın nüfuzlu universitetlərinin istifadə etdiyi “Drupal” platformasında qurulmuş ilk yerli universitet veb-saytıdır. Veb-sayt yenilənmiş dizaynı, təkmilləşdirilmiş strukturu və funksionallığı ilə seçilir. Platformada universitetin fakültələri, ixtisasları, tədris imkanları, elmi fəaliyyəti, beynəlxalq əməkdaşlıqları, eləcə də son xəbərlər və elanlar barədə ətraflı məlumatlar yer alır. Bununla yanaşı, sayt tələbələr, abituriyentlər, universitetin akademik və inzibati heyəti üçün vacib məlumatlara daha sürətli çıxış imkanı yaradır. Saytın hazırlanmasında əsas məqsəd istifadəçilərə daha rahat naviqasiya imkanı təqdim etmək, informasiya əlçatanlığını artırmaq və universitetin rəqəmsal kommunikasiya imkanlarını genişləndirmək olub. Yeni platforma vasitəsilə Qarabağ Universitetinin fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr və əldə olunan nailiyyətlər daha geniş auditoriyaya çatdırılacaq. Eyni zamanda, veb-sayt universitetin ictimaiyyətlə əlaqələrinin gücləndirilməsi, informasiya mübadiləsinin sürətləndirilməsi və müasir rəqəmsal mühitə inteqrasiyanın təmin edilməsi baxımından mühüm rol oynayacaq.





### “Qarabağ Universitetini təmsil edən ilk tələbələrdən olmaq böyük qürurdur”

*- Qarabağ Universitetinin tələbəsi olaraq universitetinizi xaricdə təmsil edəcəyinizi təsəvvür edirdinizmi? Yəqin, bu müsabiqə həyatınızda silinməz izlər buraxdı, həm də təcrübə qazandınız...*

- Açığı, bir gün Qarabağ Universitetinin tələbəsi olacağımı və onu beynəlxalq səviyyədə təmsil etmək imkanı qazanacağımı təsəvvür etmirdim. Qeyd etməliyəm ki, bundan əvvəl Azərbaycanda hüququn müxtəlif sahələrində birinciliklərim və müəyyən nailiyyətlərim olmuşdu. Lakin universitetimi beynəlxalq arenada təmsil etmək mənə bir zamanlar uzaq görünürdü. Məhz buna görə bu təcrübə mənim üçün xüsusi əhəmiyyət daşıyır. Qarabağ Universitetini bütün dünyadan 800-ə yaxın hüquq məktəbinin iştirak etdiyi “Jessup” Beynəlxalq Məhkəmə Müsabiqəsində təmsil edən ilk tələbələrdən biri olmaq böyük qürurdur. Üstəlik, Finlandiyanın Laplandiya Universiteti üzərində qələbə qazanaraq universitetimizə ilk uğuru gətirən komandanın üzvü olmaq mənim üçün unudulmaz bir nailiyyətdir.

*- Münsiflər heyətinin tərkibi haqqında nə deyə bilərsiniz?*

- Hər mərhələdə adətən üç hakimdən ibarət panel iştirak edirdi və bu hakimlər çox zaman fərqli ölkələri təmsil edirdilər. Bu amil yarışa əlavə dinamika və çətinlik qatırdı. Çünki biz arqumentlərimizi müxtəlif hüquqi baxışlara və fərqli təcrübələrə malik şəxslər qarşısında təqdim etməli olurduq. Hakimlər Braziliya, Argentina, Almaniya, Ermənistan, Böyük Britaniya, Çin, Özbəkistan və Kanada kimi ölkələri təmsil edirdi. Bu isə müsabiqənin beynəlxalq səviyyəsini və rəqabət mühitini daha da gücləndirirdi.

*- Yarış zamanı ünsiyyət qurduğunuz şəxslər haqqında təəssüratlarınız necə oldu?*

- Fərqli ölkələrdən olan iştirakçılar, hakimlər və təşkilatçılarla ünsiyyət qurmaq bu təcrübənin ən dəyərli hissələrindən biri idi. Xüsusilə maraqlı məqamlardan biri də komanda yoldaşım Fidan Məmmədova ilə birlikdə hazırladığımız iddiaçı sənədini yoxlayan Böyük Britaniyadan olan tanınmış hüquqşünas hakimlə təsadüfi qarşılaşmağım oldu.

Onun “Əgər sizin sənədə 95/100 qiymət vermişəmsə, deməli, siz mükəmməl iş ortaya qoymusunuz” deməsi mənim üçün olduqca dəyərli və motivasiyaedici idi. Ümumilikdə bu tanışlıqlar mənə göstərdi ki, dünyada çox güclü və yüksək səviyyədə hazırlıqlı rəqiblər var. Onlarla rəqabət aparmaq üçün isə daim öz üzərimizdə işləməli, daha dərin hüquqi biliklərə, geniş təcrübəyə və ciddi akademik-praktiki nailiyyətlərə sahib olmalıyıq. Bu yarış mənim üçün gələcək inkişaf baxımından böyük motivasiya oldu.

*- Bu yarış sizə nə verdi? Gələcəkdə belə yarışlar olsa, qalib olmaq üçün sizə nələrin çatışmadığını düşünürsünüz?*

- Final mərhələsində aydın şəkildə gördüm ki, komandalar arasındakı əsas fərq məhz təcrübə ilə bağlıdır. Hesab edirəm ki, bu tip beynəlxalq müsabiqələrdə təcrübə həlledici rol oynayır. Əgər bu yarışda bir il əvvəl iştirak etmək imkanımız olsaydı, düşünürəm ki, komandamız daha böyük uğurlara imza ata bilərdi. Bu təcrübə bizə gələcəkdə daha yüksək nəticələr əldə etmək üçün hansı istiqamətlərdə inkişaf etməli olduğumuzu aydın şəkildə göstərdi. Sonda isə bizə bu imkanı və şəraiti yaratdığına görə Qarabağ Universitetinin rəhbərliyinə, xüsusilə rektor Şahin Bayramova təşəkkürümü bildirirəm.

### “Bu müsabiqə mənim üçün əvəzedilməz təcrübə oldu”

Növbəti müsahibim komandanın digər üzvü Fidan Məmmədovadır. O, XI sinifdə oxuyanda Azərbaycan dili fənni üzrə  Respublika fənn olimpiadasında istirak edərək bürünc medal qazanıb.

*- Fidan, gəlin sizinlə yaxından tanış olaq.*

- Qarabağ Universitetinin “Hüquqşünaslıq” ixtisası üzrə III kurs tələbəsiyəm. Hüquq təhsili alan bir gənc kimi akademik yolumu sadəcə yerli müstəvidə deyil, həm də beynəlxalq standartlar çərçivəsində formalaşdırmağa çalışıram. Mənim üçün bir hüquqşünas sadəcə qanunu, maddələri bilməklə kifayətlənməməli, həm də analitik düşünməli, qlobal problemləri hüquqi süzgəcdən keçirməyi bacarmalı və geniş dünyagörüşünə malik olmalıdır. Məhz bu səbəbdən dərslərimlə yanaşı məqsədə gedən yolda qarşıma çıxan fürsətləri dəyərləndirməkdən qaçınmıram.

*— Bu yarış sizin üçün nə deməkdir? Bu yarışda iştirak edəcəyiniz barədə məlumatınız var idimi? Bu yarışda iştirakla bağlı məlumat veriləndə hansı hissləri keçirdiniz?*

- Bu müsabiqədə iştirakım həm mənim üçün, həm də komanda yoldaşlarım üçün əvəzedilməz, unudulmaz bir təcrübə oldu. “Philip C. Jessup” Beynəlxalq Məhkəmə Müsabiqəsi 1960-cı ildən etibarən beynəlxalq hüquq sahəsi üzrə keçirilən,  təxminən 100 ölkə və 700-ə yaxın universitetin hüquq tələbəsinin iştirak etdiyi ən köklü və mötəbər müsabiqədir. Belə bir nüfuzlu məhkəmə müsabiqəsində iştirak həm mən və komanda yoldaşlarım üçün akademik həyatımıza böyük töhfə verən bir təcrübə, həm də doğma torpaqlarda yeni əsası qoyulmuş universitetimiz üçün yeni bir ənənənin başlanğıcı demək idi. Universitetimizin müsabiqədə iştirak edən ilk formalaşmış komandası olmağımız könüllü əsaslarla baş tutdu. Belə ki, müsabiqə ilə bağlı bizə ilk dəfə məlumat veriləndə ağlımızda tək sual var idi: İlk dəfə iştirak edirik, həqiqətən də bacara bilərikmi? Müsabiqədə iştirak etmək istəyən tələbələrdən ibarət komanda formalaşdı və biz bəzən “Yox, alınmayacaq” mesajını verəndə, yəni vəziyyət istədiyimiz kimi olmadığı vaxtlarda belə bir-birimizi ürəkləndirir, uğur əldə edə biləcəyimizə inanırdıq.

İlkin vaxtlardakı zəifliklərimiz sonda ən böyük gücümüzə çevrildi. Bunlardan başqa, ölkəmizin bayrağını, universitetimizin adını beynəlxalq arenada 100-dən çox ölkənin olduğu bir məkanda təmsil etmək məni bu müsabiqədə iştiraka sövq edən ən böyük stimul idi və belə də oldu. Komanda olaraq ölkəmizi təmsil etmək kimi məsuliyyətli və önəmli bir missiyanı layiqincə tamamladığımızı düşünürəm.

*— Belə bir mötəbər yarışda iştirak etmək sizin üçün nə deməkdir?*

- “Jessup” mənə hüquqi biliklərimi praktiki müstəvidə sınaqdan keçirmək imkanı tanıdı. Həqiqətən də belədir, çünki biz komanda üzvləri olaraq müsabiqəyə hazırlaşanda paralel olaraq “Beynəlxalq ümumi hüquq” fənni təzəlikcə bizə tədris olunurdu. Beləliklə, həm dərs zamanı bu sahədəki nəzəri bilikləri dərindən mənimsəmiş olduq, həm də müsabiqə sayəsində bu bilikləri tətbiq etdik. Bu təcrübə mənim üçün “həyat kitabımın” ən parlaq və fəxrlə vərəqləyəcəyim səhifələrindən biridir.

*— Sizinlə yarışan tələbələrlə aranızda hansı fərqi müşahidə etdiniz? Qalib gələ bilməməyinizin səbəbi nə idi? Bir daha qoşulsa bilsəydiniz nələri dəyişərdiniz?*

- Müsabiqə iki mərhələdən - milli və beynəlxalq mərhələdən ibarətdir və biz ilkin milli mərhələdə ölkəmizin digər iki nüfuzlu univerisiteti ilə yarışdıq. Hər iki universitet də artıq illərdir bu yarışmada iştirak edib, bu müsabiqə üçün kifayət qədər uğurlu təcrübə yığıb, “Jessup” ənənəsi formalaşdırmış universitetlərdir. Ümumiyyətlə, iştirak edən digər tələbələr təcrübəli idi, bu yolu artıq dəfələrlə keçmiş və ya əvvəlki illərdə olan təcrübələrinə əsaslanıb zəif məqamlarını düzəltmək şansına malik idilər.  Biz bütün bunları gözə alaraq, cəsur bir addım atdıq və öz universitetimizdə ilklərin əsasını qoyduq. Ona görə də, düşünmürəm ki, biz məğlub olduq, tam əksinə çox şey qazandıq — müstəsna təcrübə, yeni bilik və bacarıqlar əldə etdik, istər akademik, istər dünyagörüşü baxımdan çox inkişaf etdik, dünyanın müxtəlif yerlərindən yeni dostluqlar qazandıq, öz sahəsində kifayət qədər uğurlu olan çox sayda beynəlxalq hüquqşünaslardan, hakimlərdən, akademiklərdən məhkəmədə etdiyimiz çıxışlara dair müsbət, bir o qədər də öyrədici rəylər aldıq, tanışlıqlar qurduq. Beynəlxalq raundlarda iştirak hüququ əldə etməsək də, yolumuz hələ bitməmişdi. Daha sonra biz müşahidəçi komanda kimi 4 ölkə ilə dostluq raundlarında yarışdıq. Xarici universitetlərlə baş tutan dostluq raundlarında anladıq ki, bizim arqumentlərimiz, çıxış bacarıqlarımız heç də geri qalmır, tam əksinə, ən güclü arqumentlərlə yarışırdıq, hətta beynəlxalq raundların birində Finlandiya universitetinə qarşı qalibiyyətimiz də oldu. Yazdığımız ərizəçi və cavabdeh sənədləri beynəlxalq hüquqşünaslar tərəfindən yüksək dəyərləndirildi, hətta bizim iddia sənədimiz hakimlərdən biri üçün digər komandaların arqumentlərini dəyərləndirərkən istifadə etdiyi nümunəvi sənədlərdən biri idi. Yenidən iştirak etsə idim, zamanımı daha effektiv bölüb hazırlaşardım. Artıq estafeti növbəti ilki komandaya ötürəcək, onlara öz təcrübələrimizi, etdiyimiz səhvləri izah edəcək, hər mövzuda yeni komandaya dəstək olacağıq. Qısası, bizim bu müsabiqədə iştirakımız bir daha onu sübut etdi ki, universitetimiz nəinki sadəcə yerli məkanda öz sözünü deyən təhsil ocağıdır, eyni zamanda beynəlxalq rəqabət meydanında da yetişdirdiyi qətiyyətli, bacarıqlı və səriştəli tələbələri ilə fərqlənən rəqabətədavamlı, tələbəsinə olan dəstəyini, inamını daim hiss etdirən universitetlər sırasındadır.

*— Bir sözlə, bu yarış sizə nə verdi?*

- Müsabiqə özü kifayət qədər çətindir, mən və komanda yoldaşlarım bu yolda çox zəhmət çəkdik, yuxusuz gecələrimiz oldu, hətta intensiv hazırlıq səbəbi ilə bəzən ailələrimizə, yaxınlarımıza vaxt ayırmaqda çətinlik çəkirdik. Sonda bu proses mənə çox şey verdi — komanda ilə işləmək, hüquqi arqumentasiya qurmaq, akademik ingilis dilində hüquqi yazı, ictimai çıxış zamanı yumşaq bacarıqların inkişafına səbəb oldu. Müsabiqədən sonra artıq özümə daha çox inanıram, problem həll etmə, analitik düşünmə, gərgin mühitdə işləmək və stressi idarə etməkdə müsabiqənin müsbət təsirini üzərimdə hiss edirəm. Fərqli bir qitədə, müxtəlif mədəniyyətlər sırasında olmaq, o atmosferi yaşamaq özü də mənim üçün böyük bir addım idi. ABŞ-də Qarabağ Universitetinin adını müxtəlif ölkələr arasında eşidəndə həmin an yaşadığımız hissləri sözlərlə ifadə etmək çətindir. Son olaraq qeyd etmək istərəm ki, hər bir uğurun arxasında inam, əzm, qətiyyət və birlik durur. Proses boyu biz komanda olaraq bir-birimizə güc və motivasiya verdik, universitetimizin bizə olan inamını, müəllimlərimizin, məşqçilərimizin, ailələrimizin dəstəyini daim öz üzərimizdə hiss etdik.

### “Fərdi çıxışlarımız yüksək qiymətləndirildi”

Elgün Əsgərova isə kommersiya arbitrajı üzrə müsabiqənin iştirakçısıdır. Qarabağ Universitetinin “Hüquqşünaslıq” ixtisası üzrə 3-cü kursda oxuyur, SABAH Qrupları tələbəsidir.  Elgün də yarışa qatılarkən həm həyəcan, həm məsuliyyət hiss etdiyini, Qarabağ Universitetini dünyanın kommersiya arbitrajı üzrə ən nüfuzlu məhkəmə müsabiqəsi olan “Willem. C Vis Moot” kommersiya arbitrajı məhkəmə müsabiqəsində təmsil etməyin onun üçün həm qürurverici, həm də məsuliyyətli bir iş olduğunu dilə gətirir.

*- Yarışda qalib olmaq üçün nələri bilmək, nələr etmək lazımdır?*

- Yarışda qalib olmaq üçün, ilk növbədə, hüquqi biliklərə, xüsusilə də hüquqi ingilis dili biliklərinə sahib olmaq lazımdır. Analiz qabiliyyəti, məntiqi düşüncə və düzgün arqument qurmaq bacarığı bu prosesdə çox vacib rol oynayır. Yarış əsasən iki mərhələdən ibarət olur: memorandumun hazırlanması və şifahi mərhələ. Memorandumun yazılma mərhələsində təqdim edilmiş keysin bütün detalları diqqətlə araşdırılmalı, hüquqi əsaslar düzgün müəyyən edilməli və arqumentlər peşəkar şəkildə  formalaşdırılmalıdır. Şifahi mərhələdə isə bu arqumentləri inamlı, aydın və peşəkar şəkildə təqdim etmək, suallara çevik cavab vermək və mövqeyi müdafiə etmək tələb olunur. Bununla yanaşı, intizamlı hazırlaşmaq, vaxtı düzgün idarə etmək, stresə nəzarət etməyi bacarmaq və özünəinamlı olmaq da uğurun əsas şərtlərindəndir.

Qeyd etmək istərdim ki, yarışın nəticələrinə əsasən bizim iddiaçı tərəf üzrə memorandumumuz 15 komanda arasında 4-cü, cavabdeh tərəf üzrə isə 2-ci yer olmuşdur. Fərdi çıxışlarımız isə yüksək qiymətləndirilmiş, şifahi mərhələdə komanda üzvləri olaraq fərdi ballarımız 100 baldan 70 və 80 bal üzərində olmuşdur.

Qarabağ Universitetinin təhsili yüksək səviyyədədir və tələbələrinin digər universitetlərin tələbələrindən potensial baxımından heç bir fərqi yoxdur. İnanıram ki, tərəfimizdən başladılmış bu ənənə gələcək illərdə davam etdiriləcək və təkmilləşdirilərək daha yüksək nəticələr əldə olunacaq.

### “Bacarıqlarımı beynəlxalq sferada sınadım”

Emil Ağazadə, Qarabağ Universitetinin “Hüquqşünaslıq” ixtisasının III  kurs SABAH Qrupları tələbəsidir. Orta məktəbdə oxuyarkən Respublika fənn olimpiadasında bürünc medal qazanıb.

O, yarış haqqında belə deyir:

- “Willem C. adına Vis” Beynəlxalq Kommersiya Arbitrajı Məhkəmə Müsabiqəsində iştirak etmək mənim üçün öz ixtisasım üzrə daha dərin biliklər əldə etmək, sahib olduğum bacarıqları isə beynəlxalq sferada sınamaq oldu.  Bu müsabiqə kommersiya sahəsində biliklərimizin, hüquqi ingilis dilində yazı və danışıq bacarıqlarımızın inkişaf etməsində böyük töhfə oldu.

**Səriyyə MÜSLÜMQIZI**

# "Əsas məqsəd ehtiyac olan ərazilərdə yeni qrupların açılmasıdır"

**Azərbaycanda erkən təhsilin əlçatanlığının artırılması istiqamətində həyata keçirilən, alternativ təhsil modeli olan icma əsaslı məktəbəqədər təlim qrupları genişlənmə mərhələsinə qədəm qoyur. Layihə çərçivəsində minlərlə uşaq artıq erkən təhsilə cəlb olunub və növbəti tədris ilində bu göstəricinin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Layihə rəhbəri Orxan Cəfərov "Azərbaycan müəllimi"nə müsahibəsində görülən işlər, qarşıda duran hədəflər və planları barədə danışıb.**



## Orxan Cəfərov: "Müəllimlərin peşəkar inkişafı, valideyn maarifləndirilməsi və icma əməkdaşlığı əsas prioritetlərdəndir"

*— Orxan müəllim, "İcma əsaslı məktəbəqədər təhsil" layihəsinin əhatə dairəsi genişləndirilir. Bu barədə məlumat verə bilərsiniz?*

— Bildiyimiz kimi, hazırda icma əsaslı məktəbəqədər təlim qruplarında 24 minə yaxın uşaq erkən təhsilə cəlb olunub. Növbəti tədris ilində bu rəqəmin 35 minə çatdırılması nəzərdə tutulur. Bu, məktəbəqədər təhsilə göstərilən diqqət və qayğının bariz nümunəsidir, eyni zamanda böyük məsuliyyət deməkdir. Statistik olaraq bu, 50 faizə yaxın artım deməkdir. Ümid edirik ki, əvvəlki illərdə olduğu kimi, tərbiyəçi - müəllimlər, valideynlər, məktəb direktorları və ümumilikdə təhsilin bütün iştirakçıları ilə birlikdə qarşıya qoyulan hədəfə nail olacağıq.

### 1158 məktəbdə 1596 qrup fəaliyyət göstərir

*— Hazırda neçə icma qrupu və müəllim fəaliyyət göstərir? Genişlənmə ilə bağlı planlar nələrdir?*

— Hazırda layihə ölkə üzrə məktəblərin təxminən üçdə birini əhatə edir. 1158 məktəbdə 1596 qrup fəaliyyət göstərir. Bu qruplarda isə 1450-yə yaxın müəllim çalışır. Növbəti ildə uşaq sayının 35 minə çatdırılması nəzərə alınarsa, əlavə olaraq 1000 nəfərə yaxın müəllimin cəlbinə ehtiyac yaranacaq. Bu isə ümumilikdə 2600-ə yaxın qrupun fəaliyyət göstərməsi və əlavə 1000 qrupun açılması deməkdir.

*— Müəllimlərin işə qəbulu zamanı pedaqoji təhsil tələbi varmı?*

— Məktəbəqədər ixtisas üzrə təhsili olan namizədlərin müraciəti arzuolunandır və onlara üstünlük verilir. Lakin layihə əsasən ucqar ərazilərdə həyata keçirildiyi üçün bu bölgələrdə ixtisaslı kadr çatışmazlığı müşahidə olunur. Bu səbəbdən, zərurət yarandıqda qeyri-pedaqoji ixtisaslı və ya ən son halda tam orta təhsilli şəxslər də işə cəlb oluna bilər.

*— İcma qrupları daha çox hansı regionlarda fəaliyyət göstərir? Yeni regionlarda genişlənmə planlaşdırılırmı?*

— Hazırda "İcma əsaslı məktəbəqədər təhsil" qrupları ölkənin 62 rayonunda fəaliyyət göstərir. Növbəti ildə əsas məqsəd ehtiyacın daha çox olduğu ərazilərdə, məktəbəqədər təhsil müəssisələrinin olmadığı və ya mövcud imkanların kifayət etmədiyi yerlərdə yeni qrupların açılmasıdır.

*— Ən çox icma qrupları hansı regionlarda cəmlənib?*

— Uşaq sayına görə ən çox qruplar, Lənkəran-Astara, Şirvan-Salyan, Mil-Muğan, Qazax-Tovuz və Quba-Xaçmaz regionlarında da icma qrupları geniş yayılıb və daha çox uşaq erkən təhsilə cəlb olunur.

### "Bakı şəhərində və ətraf ərazilərdə yeni icma mərkəzlərinin açılması nəzərdə tutulur"

*— Bakıda da yeni icma qruplarının açılması planlaşdırılırmı?*

— Bəli, Bakı şəhərində və ətraf ərazilərdə məktəbəqədər təhsilə tələbat yüksək olduğundan burada da yeni icma mərkəzlərinin açılması nəzərdə tutulur.

*— İcma mərkəzləri hansı meyarlar əsasında yaradılır?*

— Əsas meyar ehtiyacdır. Yəni erkən təhsilə çıxışı olmayan və ya mövcud müəssisələrin kifayət etmədiyi ərazilərdə icma mərkəzlərinin açılmasına üstünlük verilir. Bu məqsədlə məktəblərdə və ya digər dövlət qurumlarının inzibati binalarında uyğun şərait yaradılır.

### "Ağdamda, Suqovuşanda, Ağdərədə yeni icma mərkəzlərinin açılması planlaşdırılır"

*— İşğaldan azad olunmuş ərazilərdə vəziyyət necədir?*

— Bu istiqamətdə işlər davam edir. Artıq Füzuli, Şuşa, Ağdam, Ağdərə kimi ərazilərdə icma qrupları fəaliyyət göstərir. Növbəti ildə isə bu əhatənin daha da genişləndirilməsi planlaşdırılır.

*— Uşaqların davamiyyəti qənaətbəxşdirmi?*

— Davamiyyət əsasən mövsümlərə görə dəyişir. Payız və qış aylarında bu göstərici təxminən 60 faiz, daha mülayim və isti aylarda isə 80 faizdən yuxarı olur. Ümumilikdə davamiyyət qənaətbəxşdir.

### Naxçıvan Muxtar Respublikasında da icma qruplarının fəaliyyəti genişləndiriləcək

*— Naxçıvanda vəziyyət necədir?*

— Naxçıvan Muxtar Respublikasında da icma qrupları fəaliyyət göstərir. Hazırda Naxçıvan, Babək, Culfa, Şərur və digər rayonlarda 13 məktəbdə 25 qrup mövcuddur. Növbəti tədris ilində bu sayın artırılması planlaşdırılır.

*— Sonda nə əlavə etmək istərdiniz?*

— İcma əsaslı məktəbəqədər təhsil modelinin növbəti tədris ilində daha da genişləndirilməsi yalnız əhatə dairəsinin böyüməsi deyil, eyni zamanda daha çox uşağın erkən təhsil imkanına çıxış əldə etməsi deməkdir.

Biz inanırıq ki, erkən yaş dövründə keyfiyyətli təhsil alan uşaqlar gələcəkdə həm akademik, həm sosial, həm də emosional baxımdan daha uğurlu inkişaf yolu keçirlər. Xüsusilə ucqar və məktəbəqədər təhsilə çıxışın məhdud olduğu ərazilərdə bu layihə ailələr üçün böyük dəstək rolunu oynayır.

Lakin layihənin genişlənməsi yalnız dövlətin və ya müəllimlərin işi deyil. Burada valideynlərin, yerli icmaların və ümumilikdə cəmiyyətin dəstəyi də çox önəmlidir. Çünki uşağın inkişafı məktəb, müəllim və ailənin birgə əməkdaşlığı ilə mümkün olur.

Bizim əsas məqsədimiz sadəcə say artırmaq deyil, keyfiyyətli və davamlı məktəbəqədər təhsil mühiti formalaşdırmaqdır. Bu istiqamətdə müəllimlərin peşəkar inkişafı, valideyn maarifləndirilməsi və icma əməkdaşlığı əsas prioritetlərdəndir.

İnanırıq ki, cəmiyyət olaraq erkən təhsilə verilən hər dəstək gələcəyimizə qoyulan ən dəyərli investisiyadır.

**Yetər KƏRİMLİ**









# Şirniyyata sevgisini sahibkarlığa çevirən 56 yaşlı tələbə



**Uğur hekayəsi**

***İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin 56 yaşlı tələbəsi Kəmalə Qurbanova həm də sahibkardır. 1987-ci ildən bəri şirniyyatçı olan Kəmalə xanım peşə təhsili alarkən öz sevimli məşğuliyyətini şəxsi biznesinə çevirməyi öyrənib və artıq bu istiqamətdə planlar hazırlayıb, ilk addımlarını atıb.***

### Dərəcəli şirniyyatçı

Bakı şəhəri Bakıxanov qəsəbəsində 96 nömrəli məktəbi bitirəndən sonra o da ali məktəbdə oxumaq, filoloq olmaq istəyib: "Sənədlərimi instituta verdim, amma kəsildim. III imtahandan sonra staj tələb olunduğundan işləməyə qərar verdim. Dövlət iaşə müəssisəsində şirniyyatçı kimi işlədim".

Beləliklə, Kəmalə Qurbanovanın peşə yolu açılıb. Şirniyyatçı kimi çoxlu uğurlar — diplomlar qazanıb, dərəcə artırıb. Dərəcə almağa 1990-cı ildən başlayıb. Əvvəlcə V dərəcəli şirniyyatçı olub: "İşlədiyim müəssisədən kursa göndərir, buna əsasən dərəcəmi hər dəfə artırırdılar. 1991-ci ildə Respublika müsabiqəsində ən gənc şirniyyatçı kimi iştirak edib III yeri tutdum".

Sonra ailə həyatı quraraq İsmayıllıda məskunlaşıb. Şirniyyat sahəsində bacarıqlarını orada da inkişaf etdib. Sifariş alıb, şirniyyat bişirib: "Evdə bişirib satırdım. Ancaq peşə məktəbini bitirdikdən sonra şirniyyat evi açmaq istəyirəm".

### Peşə mərkəzində şirniyyatçı kimi bacarıqlarını artırdı

Şirniyyatçı peşə təhsili almaq istəyinin səbəbini belə izah edir: Təhsil almağım bilik və bacarığımı artırmaq istəyindən doğdu. Təhsil almağa başlayandan bəri anlamışam ki, məsələ şirniyyatı bişirməklə, bu sahədə dərəcələr qazanmaqla bitmir. Hər istehsalat dərsimiz əyləncəli, maraqlı olur, bir də, təbii ki, ləzzətli. Təhsil aldığımız dövrdə o qədər şirniyyatlar, desertlər hazırlayıb öyrənmişik. Hər bir öyrəndiyimiz modulları işimizdə tədbiq edirik. Mərkəzimizdə müasir dövrün tələblərinə uyğun şirniyyatların hazırlanmasına üstünlük verilir. Milli şirniyyatlarımızı da tez-tez hazırlayırıq".

### Əsl iş şirniyyat hazır olandan sonra başlayır

Sahibkar fəaliyyətinə gəlincə, dediyinə görə, nəinki o, qruplarındakı hər tələbə artıq bu imkana malikdir. Çünki təhsil aldıqları müəssisə də, burada verilən təhsilin keyfiyyəti də buna imkan verir: "Təhsil aldığımız İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzində şirniyyatçı kimi yetişmək üçün hər avadanlıqla təchiz edilmişik. Hər günümüz çox maraqlı keçir. Hər gün fərqli şirniyyatlar hazırlayır, bişirdiklərimizi tələbələrə, müəllimlərə satırıq. Komanda şəklində çalışır, qazancımızı da ümumi işimizə yönəldirik. Yəni həm qazanır, həm də qazancımızı idarə etməyi öyrənirik".

### Aldığı peşə təhsili ilə sahibkarlıq fəaliyyətini genişləndirəcək

Başladığı işi genişləndirmək bundan sonrakı əsas hədəfidir: "Peşə təhsilini bitirib Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə tərəfdaşlığı ilə həyata keçirilən "Gənclərin biznes emalatxanası" adlı layihəyə qoşulmaq, imkanlardan faydalanmaq istəyirəm. Fəaliyyətimi genişləndirmək, şirniyyatçı kimi peşəkar fəaliyyətimi qurmaq üçün iri və kiçik soba, blender, mikrodalğalı soba, 2 mikser, vafli aparatı, kofe üyüdən, tefal isidici kimi alətlərə ehtiyacım var".

### Davamçılarının olmasını da istəyir

Şirniyyatçı kimi təcrübəsinə güvənən Kəmalə Qurbanovanın bir xəyalı da var: "Düşünürəm ki, bu təcrübə ilə hazırda təhsil aldığım müəssisədə istehsalat təlimi ustası işləyə bilərəm. Şirniyyat bişirməyi öyrətmək də bişirmək qədər zövqvericidir. Bir gün tələbələrə dadlı, ləzzətli, gözoxşayan şirniyyatları hazırlamağın sirlərini öyrətməyin xəyalını qururam".

### Oğlu da peşə təhsili alıb

Kəmalə Qurbanova deyir ki, ailəsində peşə təhsili alan tək o deyil: "Üç oğlum var. Böyük oğlum kollec bitirib, ikinci oğlum Gəncə Dövlət Aqrar Universitetinin məzunudur, üçüncü oğlum mənim kimi peşə təhsili alır. O, "Turizm sahəsində iaşə mütəxəssisi" ixtisası üzrə təhsil alır".

**Ruhiyyə DAŞSALAHLI**

# Şagirdlərimiz 43-cü Balkan Riyaziyyat Olimpiadasında 3 medal qazanıblar



**Şagirdlərimiz 43-cü Balkan Riyaziyyat Olimpiadasından (BMO 2026) 3 bürünc medalla qayıdıblar.**

Yunanıstanın Saloniki şəhərində keçirilən olimpiadada Bakı şəhər 287 nömrəli "Zəkalar" liseyinin 10-cu sinif şagirdi Fərhad İskəndər, həmçinin Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin 9-cu sinif şagirdi Ayxan Əsədzadə və 10-cu sinif şagirdi Tunar Həsənzadə bürünc medal qazanıblar.

# Saatlı məktəblisi Avropa çempionu oldu




**Macarıstanda keçirilən qol güləşi üzrə 35-ci Avropa çempionatında ölkəmizi təmsil edən yeniyetmə idmançı Rafiq Fətəliyev böyük uğura imza atıb.**

Saatlı rayonu Ələddin Şüküroğlu adına Varxan kənd tam orta ümumtəhsil məktəbinin 8-ci sinif şagirdi olan Rafiq Fətəliyev milli yığma komandanın tərkibində çempionatda iştirak edib. O, 55 kq çəki dərəcəsində rəqiblərinə qalib gələrək qızıl medala layiq görülüb. Qeyd edək ki, Rafiq şəhid əmisi Rafiq Fətəliyevin adını daşıyır.

**Tural NƏSİROV,**
**Şirvan-Salyan və Mil-Muğan üzrə regional təmsilçi**

# Peşə mərkəzinin tələbəsi Avropa Kubokunda medal qazanıb



**İstanbul şəhərində keçirilən nüfuzlu "European Judo Cup" beynəlxalq turnirində Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin "Binaların tikintisi və istismarı" qrupunun tələbəsi Sadiq İsgəndərli uğurla çıxış edib.**

27 ölkədən 515 idmançının iştirak etdiyi Avropa Kubokunda tələbəmiz böyük əzmkarlıq nümayiş etdirərək 66 kq çəki dərəcəsində 7 görüş keçirib. 2007-ci il təvəllüdlü Sadiq İsgəndərli yarışın yekununda III yerə layiq görülərək bürünc medal qazanıb və ölkəmizi layiqincə təmsil edib.



# Bərdə STEAM Mərkəzinin komandası beynəlxalq robot yarışında

6-8 may tarixlərində Bərdə Dövlət Peşə Təhsil Mərkəzinin nəzdində fəaliyyət göstərən Bərdə STEAM Mərkəzində hazırlıq keçən "Kraken" komandası Türkiyədə keçirilən 18-ci Beynəlxalq MEB Robot Yarışmasında uğurlu nəticə əldə edib.

Komanda yarışın "Sualtı gəmi" kateqoriyası üzrə final mərhələsində iştirak edən 37 komanda arasında 7-ci yerə layiq görülüb. "Kraken" komandasının heyətində yer alan iştirakçılardan 2 nəfəri Bərdə Dövlət Peşə Təhsil Mərkəzinin müəllim və tələbəsidir.

Qazanılan nəticə gənclərin innovasiya, robototexnika və STEAM sahələrinə marağının artırılması, eləcə də peşə təhsilində müasir texnologiyaların tətbiqinin təşviqi baxımından mühüm əhəmiyyət daşıyır.


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Gəncə Dövlət Universiteti

## aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Kafedralar üzrə boş olan vəzifələr:**

1. Menecment və turizm işi - professor, 1 yer
2. Azərbaycan və dünya ədəbiyyatı - dosent, 1 yer, 0.75 şt.
3. Fizika - dosent, 2 yer, 0.75 şt.
4. İnformatika və cəbr - baş müəllim, 1 yer
5. İdarəetmə - baş müəllim, 1 yer
6. Leksika və ölkəşünaslıq - baş müəllim, 1 yer
7. Ümumi texniki fənlər və texnologiya - baş müəllim, 2 yer
8. İqtisadiyyat - müəllim, 1 yer

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması" Qaydalarına və 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**ÜNVAN:** *AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.*
*Gəncə Dövlət Universiteti, əsas bina (I)*
*Telefon: (022) 266-01-89*



## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 30744 **Sifariş:** 646

**Məsul növbətçi:** S.Kərimova


# Etibarsız sayılır

**Tovuz rayon** Qədirli kənd tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Məmmədov Rəvan Ramin oğluna verilmiş E-821102 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz şəhər** N.Tusi adına təbiət və texniki təmayüllü məktəb-liseyi 2025-ci ildə bitirmiş Ağayev Anar Seymuroviçə verilmiş E-822207 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Zeynalova Zülfiyyə Faiq qızına verilmiş B-505114 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 9 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Hacıyev Məsud Bilal oğluna verilmiş A-328498 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Sadıqlı kənd tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Əfəndiyeva Sevda Asim qızına verilmiş B-610576 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 313 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Həbilova Vəfa Xanım Şahbaz qızına verilmiş E-453881 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Körpükənd kənd tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Hacıyeva (Abdullayeva) Gülşən Abdulla qızına verilmiş A-355152 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** 3 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Şirinov Vüsal Qardaşxan oğluna verilmiş A-560073 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 182 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Bəşirov Sübhan İlham oğluna verilmiş E-673383 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 263 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Bəyəliyeva Günay İnşallah qızına verilmiş A-966707 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Ağayev Rəvan Bəylər oğluna verilmiş E-447487 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 81 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Dadaşov Pərviz Telman oğluna verilmiş A-361375 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Əliyeva Dilarə Qurban qızına verilmiş A-256307 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Mollakənd kənd tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş İsmayılov Sadiq İsməli oğluna verilmiş E-400869 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdərə rayon** Umudlu kənd tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Hüseynov Ruslan Urfan oğluna verilmiş A-386770 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** M.Ə.Sabir adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1992-ci ildə bitirmiş Quliyev Ruslan Arif oğluna verilmiş A-203818 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti** tərəfindən 1992-ci ildə Şükürov Mehman Məmmədxan oğluna verilmiş ЦВ-839425 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qazyan kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Sadıqova Kəmalə İsrayıl qızına verilmiş A-368238 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş İbrahimova Dilarə Nurəddin qızına verilmiş əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**56 nömrəli Texniki Peşə məktəbi** tərəfindən 1994-cü ildə Qasımov Müşfiq Əhməd oğluna verilmiş 3-0962640 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 4 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Şahverdiyeva Səbinə Arif qızına verilmiş B-129225 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Nağızadə Habil Mübariz oğluna verilmiş A-091506 nömrəli əsas təhsil haqqında şəhadətnamə və 2013-cü ildə verilmiş A-256104 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 242 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Məmmədov Nihad Zahir oğluna verilmiş A-014395 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2015-ci ildə Məmmədov Nihad Zahir oğluna verilmiş A-056237 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Havzova kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Fərzullayeva Qənirə Şali qızına verilmiş 106 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Ələkbərov Əlihüseyn Zaur oğluna verilmiş E-339476 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xocavənd rayon** Əmirallar kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Əsgərova Səbinə Novruz qızına verilmiş E-258275 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 317 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Abbaszadə Kənan Vüqar oğluna verilmiş E-210081 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universteti** tərəfindən 2022-ci ildə Məmmədyarov Rəsul Dənyar oğluna verilmiş AT-008246 nömrəli baza ali tibb təhsili diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2001-ci ildə Ağamirov Hikmət Həsən oğluna verilmiş A-086550 nömrəli bakalavr diplomu və diploma əlavə, 2003-cü ildə verilmiş MNA-007605 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Çökəkoba kənd tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Qədirova Aksana Murad qızına verilmiş E-053200 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Bəhmətli kənd tam orta ümumtəhsil məktəbi 1981-ci ildə bitirmiş İskəndərov Uluxan Salam oğluna verilmiş AH-438627 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Vəliyeva Sədaqət Nəzir qızına verilmiş A-630740 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Çobankol kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Vəliyeva Rəvanə Abid qızına verilmiş B-520865 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli baza tibb məktəbi** tərəfindən 2003-cü ildə Vəliyeva Xəyalə Sergey qızına verilmiş AB-II-095827 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1991-ci ildə Xələfova Zərifə Tofiq qızına verilmiş УВ-I-113878 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** inteqrasiya təlimli internat tipli gimnaziyanın IX sinfini 2012-ci ildə bitirmiş Kazımova İlahə Fərhad qızına verilmiş 202357 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Zaidova Xədicə Ülkərovnaya verilmiş E-615274 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Ceyranbatan qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Həsənzadə Caməd Füzuli oğluna verilmiş E-143526 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2016-cı ildə Məlikov Aydın İntiqam oğluna verilmiş A-093977 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Səmədova Arzu Nağı qızına verilmiş A-514593 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**"Zəngi" liseyini** 2010-cu ildə bitirmiş Rzayev Rafiq Səbuhi oğluna verilmiş B-691306 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Maşxan kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Avsəlova Şəbnəm Allahyar qızına verilmiş B-189337 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 138 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Ramazanov Raul Süleyman oğluna verilmiş E-212179 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1980-ci ildə bitirmiş Nəcəfova Ellada Adil qızına verilmiş 925860 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Məmmədova Nigar Yaşar qızına verilmiş A-074014 nömrəli bakalavr diplomu və diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.